2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində
8 yanvar 2020-ci il tarixli 69 saylı müraciətə baxılmasına dair
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# Q Ə R A R I

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 55 saylı Xaçmaz şəhər seçki dairəsindən Yergüc bələdiyyəsi üzrə qeydə alınmış namizəd Rüstəmov Qaflan İslam oğlunun Yergüc bələdiyyəsinə seçkilərdə məntəqə seçki komissiyalarında baş verməsi iddia edilən pozuntular barədə 25 dekabr 2019-cu ildə poçt xidmətinə təqdim etdiyi və 8 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) daxil olmuş müraciətində həmin bələdiyyəni əhatə edən 4 seçki məntəqəsində qanun pozuntularının olduğunu iddia etmiş və qanuna müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən ilkin olaraq nəzərdən keçirilərkən Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a əsasən aidiyyət qaydalarının pozulması ilə daxil olduğu müəyyən edilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə səsvermə günü seçki məntəqələrində iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci hissələrinə əsasən **q ə r a r a a l ı r :**

1. 55 saylı Xaçmaz şəhər seçki dairəsindən Yergüc bələdiyyəsi üzrə qeydə alınmış namizəd Rüstəmov Qaflan İslam oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 8 yanvar 2020-ci il tarixli 69 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Arifə Muxtarova

Katib Mikayıl Rəhimov